**ESMİRA GÜNƏŞ**

# ŞİMŞƏKDƏN DƏNİZƏ

**Bakı - 2024**

**Redaktor:** Esmira Günəş
**Korrektor:** Aynur İsmayılova
**Dizayner:** Fariz Məhərrəmov

Esmira Günəş. "Şimşəkdən dənizə".
Bakı, "Gənclik", 2023, 84 səh.

Əziz oxucular, bildiyiniz kimi şəhidlərimiz haqqında bir çox kitabın müəllifiyəm. Bu dəfə də görüşünüzə şəhid Davud Məmmədlinin və dənizdə boğulan xalası oğlu İsgəndər Əhmədzadənin xatirəsinə həsr etdiyim "Şimşəkdən dənizə" kitabı ilə gəlmişəm. Kitabda şəhid Davud Məmmədlinin və sadiq dostlarının həyatından bəhs edilir. Əminəm ki, sizlər bu kitabı da digər kitablarım kimi maraqla oxuyacaqsınız.

İSBN: 978-8020-1768-7-5

**© Esmira Günəş**

# ƏMİRCAN QƏSƏBƏSİ

Əmircan- Bakının Suraxanı rayonunda yerləşən şəhər tipli qəsəbədir. Əmircan qəsəbəsində 53 küçə, 6 məktəb, 10 uşaq bağçası, 3 xəstəxana, 1 internat məktəbi, park, Səttar Bəhlulzadə adına mədəniyyət sarayı, Tofiq İsmayılov adına qəsəbə stadionu (Azərsun arena), Məşədi Əzizbəyov adına klub, A.Bakıxanov adına və Neftçilər kitabxanaları var.

Mərkəzin hündürlüyü 18 metrdir.

Əhalisi 2012-ci ilə qədər 29.800 nəfər olub.

Bakının şərqində, Şor gölünün sahilində yerləşən Əmircan Suraxanı rayonunun mərkəzi sayılır. Abşeronun ən qədim kəndlərindən biri olan Əmircanın köhnə adı Xilə olub. Hələ o dövürlərdə Abşeronun əksər kəndləri və Bakını birləşdirən ticarət yolları buradan keçdiyi üçün bura Dərxilə, yəni Xilə qapısı deyiblər. XIV əsrdə Əmir Nizaməddin hacıların ziyarətinə başçılıq etdiyi üçün onun “Əmircahan” titulu kəndə verilib.





# ŞİMŞƏKDƏN DƏNİZƏ

**(povest)**



Uşaq vaxtı nənəmizin nağıllarından dinləyərdik yeddi bacı, bir qardaş nağılını. Heç ağlımıza da gəlməzdi ki, uşaq vaxtı nağıl bilib, şirin-şirin dinlədiyimiz talelər əslində gercək həyatın bir hissəsidir.

Nağıllarda ən çox diqqətimizi çəkən şəxs baş qəhrəman olub. Onun şərlə mübarizəsi, qorxmazlığı, cəsarəti, yenilməzliyi, ən sonda isə qalibiyyəti hər zaman dinləyicini həyəcanlandırıb.

Yeddi bacının dördüncüsü olan Səlimənin taleyi heç də nağıllardakı kimi rəngarəng və gözəl olmayıb. Tale yazan qələm onun taleyini dayısı oğlu Fuada yazdığı bir gündən Səlimənin imtahanları bitib tükənmək bilməyib. Qismətini daysı oğlu ilə birlikdə yaşayan Səlimə həyatın çətin anlarına səbrlə dözərək, 2003-cı ilin otyabrın 3-ü ilk övladını qucağına alıb.

***



Oktyabr payız fəslidir. Payız günlərində bəzən göydən narın-narın yağış tökülər yer üzünə, bəzən küləyin xəfif rüzgarı darayar ağacların saçlarını, bəzən də, günəş isti nəfəsi ilə torpağın üzündən öpər. Payızda doğulan körpələr də fərqli doğulur. Payız hopur xarakterlərinə. Bəzən payız kimi sərt, bəzən də mülayim xasiyyətli olurlar.

2003-cü ilin payızı Məmmədlilər ailəsinə ən gözəl sevgi payıyla gəlmişdi. Əmircan qəsəbəsində yaşayan Məmmədlilər ailəsinin sevinci göyə-yerə sığmırdı. 2003-cu ilin oktyabr ayının 3-ü Məmmədlilərin oğul payı gəlmişdi dünyaya. Körpəyə babasının adı verilmişdi. Davud Məmmədli həm babasının adını daşıyacaq, həm də Məmmədlilər nəslinin davamçısı olacaqdı. Qəhvəyi qıvrımsaçlı, qəhvəyi gözlü, arıq bədən quruluşu olan bu körpə elə doğulduğu bir gündən hər kəsə özünü sevdirməyi bacarmışdı.

El arasında belə bir adət var. Körpə doğulandan 40 gün sonra "Uşaqgördü" mərasimi keçirilər. Yaxınlar, qohumlar, doğmalar həmin gün yeni doğulan uşağı görmək üçün müxtəlif hədiyyələrlə ailəyə qonaq gələrlər. Ev sahibi də gözəl süfrə hazırlayar. Bir süfrə arxasında əyləşən qohumlardan əvvəl ağsaqqallar, ağbirçəklər sonra da sıra ilə hər kəs gözaydınlığı verər, yeni doğulan körpə ilə bağlı xoş arzularını dilə gətirərlər. Körpə Davudu görmək üçün də demək olar ki, bütün qohumlar toplaşmışdı bir araya. Qucaqdan-qucağa gəzən balacanın şirinliyindən onu heç kəs qucağından yerə qoymaq istəmirdi. Səlimə xanım körpəsini gözündən qoymurdu. İlk övladı ilə nəfəs alırdı.

2004-cü il Məmmədlilar ailəsi yeni ili ikiqat bayram kimi qeyd etdi. Çünki Davudun həm də ilk bayramı idi. Bayram bayrama qarışmışdı.




Davud Məmmədlinin adını daşıyan yeganə oğul nəvəsi elə xasiyyətcə də babasına çəkmişdi. Üzünü görmədiyi babası kimi yeri gələndə zəhmli, tündxasiyyət, yeri gələndə gülərüz və zarafatcıl idi. Davud böyüdükcə qıvrımsaçlarını görən qonum-qonşu onu Puşkinə oxşadırdı. Elə həyətdə Puşkin kimi çağrılmağa başlayan Davudun ləqəbi Puşkin kimi də qalır. Ancaq bu adla çağrılmaq heç də Davudun ürəyincə deyildi.

Davud 2 yaşından nənəsi işlədiyi 87 saylı baxcaya getməyə başlayır. Səlimə xanım övladını evdə tək olmasın, ətrafında həmyaşıdları daha çox olsun, günü maraqlı keçsin deyə hər gün baxçaya özü aparıb, gətirir. 87 saylı baxcanın sakini olan balaca Davud orada da özünü sevdirməyi bacarır. Bütün müəllimlərinin sevimlisi olaraq, uşaqlarla tez dil tapıb, hər kəslə ünsiyyət qurmağı bacarır. Uşaqlıq illəri 87 saylı baxcada keçən Davud evdə olduğu zamanlarda isə vaxtını özündən bir yaş böyük xalası oğlu İsgəndərlə birlikdə keçirir.



İsgəndər Əhmədzadə 30 avqust 2002-ci ildə doğulmuşdu. Aralarında bir yaş fərq olmasına baxmayaraq, Davudla İsgəndər əkiz kimi böyüyürdü. Demək olar hər gün bir yerdə oynayır, çox zaman geyimləri də eyni olurdu. Bir qəsəbədə yaxın ərazilərdə qalan xalauşaqları tez-tez görüşürdülər.

Hər gün axşamlar mütləq ya Səlimə xanımgil bacısı Aygünxanımgilə gedər, ya da Aygün xanımgil Səlimə xanımgilə gələrdilər. Beləcə Davudla İsgəndərin günü birlikdə keçərdi. Hətta oynamaqdan yorulanda bir-birinin evində də yatıb qalardılar.

Həyətdə uşaqlarla oynayarkən məhəllə uşaqlarından heç biri onlara söz deyə bilməzdi. Uşaq olsalar da hər zaman bir-birini qoruyardılar. Bu iki uşağın bir-birinə olan bağlılığı yaxın qohumları da sevindirər, onlar da çox zaman deyərdilər ki, “Davudla İsgəndər böyüyəndə çox möhkəm dost olacaqlar. Çətin ki, bu dostluğun yolu ayrıla.”

Hələ qədim zamanlardan ta bu günə kimi dostluq anlayışı insanlar arasında çox dərin məna kəsb edib. Əsl dostlar heç zaman ayrılmaz. Əsl dostluğun qarşısını heç nə kəsə bilməz. Hətta bu mövzuda çoxlu atalar sözlərimiz belə var.

*Dost qədrini dost bilər.

*Dostsuz insan qanadsız quş kimidir.

*Dost yolunda can qurban

Sanki bu atalar sözləri də məhz Davudla İsgəndərin dostluğuna həsr olunub.



2006-cı il dekabrın 22-si Məmmədlilər ailəsinin daha bir sakini dünyaya gəlir. Davudun bacısı doğulur. Fuad əmi ilk qız övladının adını özü qoyur. Balaca Fidan  çox şirin, gözəl sevimli olduğundan Davudun da qəlbində ilk gündən özünə yer edir. Fidan da böyüdükcə meylini qardaşına salır. Qardaş bacı çox mehriban böyüdüyündən Səlimə xanımı incitmirlər. Yel qanadlı günlər ömürdən ötür. İllər bir-birini əvəz etdikcə, ömürdən günlər də beləcə keçib gedir. Zaman öz axırı ilə davam edir. Körpələr böyüyür.

Müsəlman xalqlarının qədim adətlətindən biri də oğlan uşaqlarına kiçik toy etdirməkdir. Davudun da bu adətdən keçmə yaşı çatmışdı. Elə bu münasibiətlə ailə bir yığıncaq təşkil etməyə qərar verir.

2007-ci ildə Məmmədlilər ailəsində hər kəsin başı yaman qarışmışdı. Kimi qonaqları qarşılayır, kimi yeməklərin hazırlanmasına kömək edir, kimi isə masaları hazırlayırdı. Həmin gün Məmmədlilər ailəsində hər kəs balaca Davudun xeyir işinə toplaşmışdı.  Bəzəkli xonçalarla qapıdan girən qohumların hər biri Davudun böyük toyuna gəlməyi arzulayırdılar. Şirin arzularla qol qaldırıb həyətdə oynayan qohumlar gözəl günlərin xəyallarıyla Səlimə xanıma və Fuad əmiyə gözaydınlığı verirdilər.




Artıq 5 yaşına çatan Davud baxca ilə vidalaşıb, vaxtı ilə babası Davud Məmmədlinin işlədiyi 114 saylı məktəbdə birinci sinifə başlayır. Məktəbin ilk dərs günü qıvrımsaçlı bu balaca oğlan əlindəki gül dəstəsi və söylədiyi şeirlə müəllimin diqqətini özünə cəlb edir. Bu balaca oğlanın gələcəkdə böyük işlər görəcəyinə inanan müəllim diqqət və qayğısını Davuddan əskik etmir. Dərslərinə hər zaman hazır gələn şagird əlbəttə ki, müəllimlərinin də fəxri olur. Davudla İsgəndər o qədər bir-birinə bağlı uşaqlar olur ki, hətta orta təhsili də eyni məktəbdə alırlar.

2010-cu ildə Məmmədlilər ailəsi daha bir körpə sevinci yaşayır. 2010-cu il sentyabrın 16-sında ailənin ikinci qız övladı dünyaya gəlir. Körpənin adını bu dəfə Səlimə xanım özü qoyur. Məmmədli Əsna.

Əsna evin son beşiyi olduğundan Davudun da sevimli, ərköyün bacısı olur. Fidanla Davud Əsnaya baxmaqda Səlimə xanıma çox kömək edirlər. Fidan məktəbdə olanda Davud vaxtını

Əsnayla keçirir. Balaca bacısı ilə maraqlı oyunlar oynayır. Davud məktəbdə olarkən isə Fidan bacısına qayğı göstərir. Yeməyini yedizdirməkdə, paltarlarını dəyişməkdə anasına kömək edir. İki bacı bir qardaş mehriban böyüyürlər. Bəzən Səlimə xanım övladlarını kənardan seyr etdikcə sevincdən gözləri yaşarır. Hər birinin körpəliyi gözlərinin önünə gəlir. İllər nə tez keçir. Yuxusuz gecələrinin sonunda övladları böyüyür, hər il bir yaş daha gözəlləşirlər. Əsna da sevgi içində günü-gündən böyüyür. Artıq məktəbli olan Əsnanı Səlimə xanım qızı Fidanın oxuduğu 84 saylı məktəbə yazdırır.



Davud 114 saylı məktəbdə oxusa da, bacıları 84 saylı məktəbdə oxuyurdu. Evə daha yaxın olduğundan Səlimə xanım hər iki qızının qeydiyyatını 84 saylı məktəbə yazdırmışdı. Lakin zamanla iki məktəb arasında uşaqları aparıb gətirmək çətin oldu-

ğundan 7-ci sinifə qədər 114 saylı məktəbdə oxuyan Davudu da, bacılarının oxuduğu 84 saylı məktəbdə yazdırır. Baxmayaraq ki, Davud müəllimlərindən və sinif yoldaşlarından ayrı düşür, yeni məktəbinə tez alışır. Burada da, özünü sevdirməyi bacarır. Qısa zamanda sinif yoldaşlarıyla dil tapıb, dostlaşır.

Hələ uşaqlıqdan idmana marağı olan Davud və İsgəndər asudə vaxtlarında idmanın müxtəlif növləri ilə də məşğul olurlar. Davud "Qaydasız döyüş" və "Boks" növləri ilə ciddi məşğul olur. İsgəndər isə "King boks" növü ilə məşğul olur. Hər ikisi dəfələrlə qatıldığı yarışlarda müxtəlif yerlər üzrə qalibiyyət qazanırlar. Həmçinin futbol azarkeşi də olan Davudun ən sevimli komandası "Neftçi" olur. Sevimli komandasının oyunlarını sevərək izləyir, hətta komandanın yaranma tarixini və bütün uğurlarını əzbər bilirmiş. "Nefçi" azarkeşi olan Davud evlərindəki Wifi şifrəsinə belə komandanın yaranma tarixini yazdırır. Davud hər zaman digər yaşıdlarından fərqlənib. Dostları oyuncaq maşınlara maraq göstərəndə, Davud oyuncaqlarını söküb onların naqillərindən yeni nələrsə yaradar, hətta yeni oyuncaqlarına müxtəlif adlar da verərdi. Daha çox yeni oyuncaqlarını bombalara bənzər. "Qaçın, gizlənin. İndi bombalar partlayacaq. düşmənləri öldürəcəm."-deyərdi.

Davudun mexanikaya olan marağı onun təhsilini Peşə məktəbində davam etdirməsinə səbəb olur. 9-cu sinifdən Davud Məmmədli Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin 13 saylı Bakı Peşə Məktəbinin tələbəsi olur. Elektirik avadanlıqları və onun təmiri üzrə elektrik sənətini öyrənən Davud seçdiyi peşənin sirlərini sevərək öyrənməyə başlayır.

İsgəndər isə təhsilini İqtisadiyyat kollecində davam etdirir.

Rəssamlığa olan sevgisi özünü ixtisas seçimində də göstərir. İsgəndər Dizaynerlik oxuyaraq, peşəkar rəssam olmağı və DİN-də robot rəssam polis kimi işləməyi arzulayır.





Davud kişi kimi mərd, dəliqanlı cavan idi. O düşünürdü ki, əgər bu yaşacan hər əziyyətini valideynləri çəkib onu böyüdübsə, bundan sonra öz xərcliyini özü qazanmalı, valideynlərini bu barədə narahat etməməlidir. Odur ki, boş vaxtlarında İsgəndərlə birlikdə müxtəlif işlərdə çalışıb öz xərcliyini özü qazanırdı. Valideynləri hər nə qədər bunun əleyhinə olsa da, o inadından dönmür artıq yetərincə böyüdüyünü sübut etməyə çalışırdı. Bəzən tikintidə fəhləlik edir. O cılız bədəni ilə ən ağır yüklərin belə altına girirdi. Bəzən də restoranlarda ofisant işləyib öz xərcliyini özü qazanırdı. Hansı işdə çalışmasından asılı olmayaraq, hər zaman işinə məsuliyyətlə yanaşırdı. Buna görə də düşdüyü hər mühitdə rəhbərlik tərəfindən sevilir və hörmətlə qarşılanırdı.



Davudun ana babası Əbdüləli Abbasov 1941-1945-ci illərdə müharibədə iştirak edib və vətən uğrunda şəhid olub.

Davudun atası Fuad Məmmədli də 1992-ci ildə vətən uğrunda savaşlara qatılıb. Qarabağ savaşlarının iştirakçısı olan Fuad Məmmədli müharibənin sonuna qədər xidmətdə olub. Davud qəhrəman bir nəsildə igid və cəsur böyüyüb. Keçmişdən söz düşəndə, Qarabağdan, savaşlardan danışarkən şəhid babası və veteran atası ilə hər zaman qürur duyub.

20 yanvarda, 26 fevralda bütün televiziya kanallarında faşist ermənilərin xalqımızın başına gətirdiyi müsibətlərdən filmlər göstərilən zaman Davud da çox təsirlənər, düşmənlərə olan nifrəti birə min artardı. Hələ uşaq olmasına baxmayaraq hər zaman düşmən tapdağı altında olan torpaqlarımızın azadlığını arzulayan Davud o balaca ürəyi ilə həmyaşıdlarına deyərmiş ki, bir gün torpaqlarımızı düşmənlərdən azad edəcəyik.

İllər sonra Davudun arzusu reallaşır. 27 sentyabr 2020-ci ildə Ali baş komandanımız İlham Əliyevin əmri ilə düşmən tapdağı altında olan torpaqlarımızın əsarətdən azad edilməsi üçün "Dəmir yumruq" hərəkatı başladılır. Çox keçmir ki, cəmi 44 günə Azərbaycan ordusu düşmənlərə öz gücünü göstərir və Qarabağ torpaqlarının böyük bir qismi düşmən tapdağından azad olur. Bu zəfər hər nə qədər qürurverici olsa da, müharibə itkisiz ötüşmür. Hər gün cəsur döyüşçülərimizin şəhid xəbərləri gəldikcə ürəyimiz parçalanır. Göz yaşlarımız selə dönür. Şəhid xəbərləri Əmircandan da yan keçmir. 5 oktyabr 2020-ci il tarixində Əmircan ilk şəhidini qarşılamalı olur. Bu hadisələr baş verərkən on yeddi yaşılı Davud hisslərini cilovlaya bilmir. Döyüş meydanına atılıb düşmənlərə həddini bildirmək istəyir. Lakin hərbi xidmət yaşı çatmadığından gözləməyə məcbur olur.

Oktyabrın 5-i Orxan  Hüseynovun şəhid xəbərinin ardıyca oktyabrın 23-ü Əmircan daha bir şəhidini, Nazim Kirxlarovu qarşılayır. Noyabrın 18-i isə Elşən Salayevi torpaq qoynuna alır. Müharibə qələbə ilə nəticələnsə də, noyabrın 8-i "Zəfər günü" kimi qeyd olunsa da, dekabrda Əmircana daha iki şəhid gətirilir. Elşən Səmədli və İsabala Hüseynov.

Bir yandan qələbəyə sevinən Azərbaycan xalqı bir yandan da gələn şəhid xəbərləri ilə ürəyini dağlayır. Anaların fəryadları, şəhid yaxınlarının gözlərindən düşən yaşlar sanki ox olub insanların qəlbini dəlir. Səlimə xanım şəhid analarını gördükcə ürəyində dualar edir, "Ay Allah, sən heç bir anaya bala dərdi yaşatma"-deyirdi. Davud isə Əmircana gələn hər şəhidi qəsəbə sakinləri ilə birlikdə qarşılayır, onların ailələrinə dəstək ola bilmək üçün əlindən gələni edirdi.

Nəhayət ki, qələbədən bir müddət sonra sakitçilik höküm

sürməyə başlamışdı. İşğal altında olan ərazilərin bir qismi azad olunsa da, hələ əsarətdə qalan ərazilər də vardı. Lakin, Azərbaycan xalqının Ali baş komandanı daha çox qan tökülməsin, şəhid verməmək üçün düşmənlərə vaxt vermişdi ki, torpaqlarımızdan xoşluqla çıxsınlar. Xalq müharibənin bitməsinə yenicə sevinirdi ki, 2021-ci ilin noyabrında daha bir dəhşətli xəbərlə oyanır. Noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin (DSX) Mi-17 tipli 20136 bort nömrəli hərbi helikopteri Xızı rayonu ərazisində yerləşən «Qaraheybət» aviasiya poliqonunda təlim uçuşları yerinə yetirərkən qəzaya uğrayır, 14 nəfər ölür, iki nəfər yaralanır. Bu dəfə də Əmircan Şəhidlər Xiyabanı daha bir şəhidini, Kapitan Xəyyam Əliyevi alır qoynuna.

***

2022-ci ildə hər kəsin arzusu müharibəsiz, sülh içində yaşamaq idi. Bütün xalqın arzusu bir olanda dualar da göylərə tez yetişirmiş. Bu ilin ən yadda qalan məqamlarından biri o idi ki, Davud artıq hərbi xidmət yaşına çatmışdı və vətən keşiyini çəkməsi üçün xidmətə çağırış vəsiqəsi gəlmişdi.

Yaxın qohumlardan birinin toyu idi. Hər kəs kimi Məmmədlilər ailəsi də toya xüsusi hazırlaşırdılar. Toyun vaxtı bəlli olanda Səlimə xanım astaca oğluna bildirir ki, eyni gündə nənəsinin də ad günüdür. Bir evdə yaşadıqları ata nənəsinin 70 yaşı tamam olur. Davud anası ilə danışıb toyda nənəsinə sürpriz etməyi qərara alır. Səlimə xanım bu işdə oğluna kömək edir. Onlar öncədən qızılgül buketi alıb evdəkilərin xəbəri olmasın deyə gizlədirlər. Toyun vaxtı çatanda yaxın qohumlarla birlikdə Davud da canla-başla ev sahibinə kömək edir. Toyun sonlarına yaxın başı köməyə qarışan oğlunu Səlimə xanım yanına çağırıb, nənəsinin

ad gününü xatırladır. Çox keçmir ki, məkanda abu-hava tamam dəyişir. Qıvırcıq saçlı, yaraşıqlı Puşkin əlində gül dəstəsi oynaya-oynaya nənəsinin yanına gedir. Gülləri verib onu qucaqlayıb, bağrına basır. Toyda hər kəs heyranlıqla bu mənzərəni seyr edir. Daha sonra nənə nəvəsi ilə birlikdə gözəl rəqs edir. Sevincindən gözləri yaşaran nənənin bütün nəvələri başına toplaşır.

Həmin vaxt həm də Davudun hərbi xidmətə çağırıldığı vaxtla üst-üstə düşdüyündən bütün qohumlar bu münasibətlə də Davudu təbrik edirlər. Toyun bir hissəsi vətənpərvər musiqilərə həsr olunur. Həmin toy unudulmaz xatirələrdən birinə çevrilir. Bütün doğmaların uzun müddət dilindən düşmür.



İyulun 13-ü 2022-ci ildə hərbi xidmətə çağırış vəsiqəsini əlinə alan Davud sevincini doğmaları ilə paylaşır. Bütün qohum-əqraba Davudu xidmətə yola salmaq üçün bir araya toplaşır. Növ-növ yeməklər bişirilir, süfrələr cürbəcür şirniyyatlarla bəzədilir. Səlimə xanımın qapısından girən hər kəs ona gözaydınlığı verir.

-Gözünüz aydın olsun. Oğlunuz böyüyüb xidmətə gedir artıq. Sağ-salamat qayıtsın. Gün o gün olsun bax bu qapıda Davudun toyuna yığışaq.

Gələn qohumların, qonşuların dilindən düşməyən bu duaları hər eşitdikcə Səlimə xanım da ürəyində "amin" deməkdən yorulmur.

Həmin gün nə qədər işləsə də yorulmaq bilməyən ananın sanki iki qanadı vardı kürəyində. Elə bil ki, bu saat o qanadlar pərvazlanacaq və nə zaman istəsə onu balasının yanına aparacaqdı. Dost-tanışıyla qol qaldırıb oynayan balasına bir daha kənardan baxıb, qəlbində qürur duyurdu. İllər əvvəl barmaqları kibrit dənəsini xatırladan körpə Davudu böyüyüb boy-buxunlu, yaraşıqlı bir gənc olmuşdu daha. İndi o barmaqları silah tutacaq, Davud Vətən keşiyində duracaqdı. Bir anlıq ürəyindən keçdi ki, Davudu qucaqlayıb bağrına bassın, uşaq vaxtı qoxladığı kimi balasının gül ətrini ciyərlərinə çəksin. Birdən ağlına gəldi ki, artıq sabahdan Davud öz evində yatmayacaq gecələr. Hərbi xidməti bitənə qədər onlardan ayrı qalacaq. Elə bu zaman o qara gözlərə hüzn çökdü. Bala həsrəti həmin an yer eylədi qəlbində. Gözləri yaşardı. Duyğulandı. Hönkür-hönkür ağlamamaq üçün özünü mətbəxə salan Səlimə xanım işlə başını qatmağa çalışdı.

Bütün doğmalar yeyib-içib, əylənəndən sonra Davudu hərbi hissəyə yola salmaq üçün yola düşürlər. Maşınlarda vətənpərvər musiqilər, havada dalğalanan bayraqlar, bir sözlə baxanları heyran edən ruh yüksəkliyi ilə sevinə-sevinə igid əskəri xidmətə yola salırlar.



Hərbi xidmətinin ilk günlərini Gəncə şəhərində keçirən Davudun Andiçmə mərasiminə ailəsi də getmişdi. Ailə üzvlərini yanında görən Davud sevincindən anasını, atasını, bacılarını bağrına basıb, onları doyunca qucaqlayır. Bir saat ailəsi ilə vaxt keçirən gənc əsgərə onlardan ayrılmaq çətin gəlirdi. Lakin, o xidmətə qayıtmalı, vətənin keşiyində durmalı idi.

Andiçmə mərasimindən sonra 2022-ci ilin sentyabr ayında düşmən tapdağından azad olunan yüksəkliklərdə Davud xidmətini davam etdirməyə başlayır. Hansı ki, həmin yüksəkliklər düşməni tam nəzarətdə saxlamağa imkan yaradırdı. Daşkəsənin ən soyuq ərazisi olan bu sərhəd nöqtəsində xidmət etmək elə də asan deyildi. Lakin Davud heç bir çətinliyə baxmayaraq, xidmətini layiqincə yerinə yetirirdi.

Nümunəvi xidmət edən Davudu hərbi hissədə də hər kəs sevir, xətrini çox istəyirdilər. Ürəklə xidmət edən Davud hər zaman komandirlərinin əmrinə hazır olurdu. Xidmətinin 10 ayı tamam olduqdan sonra Davud hərbi hissədən məzuniyyətə göndərilir. Səlimə xanım övladını qarşısında görəndə sevincindən atılıb boynunu qucaqlayır. Üz-gözündən öpür. Davudun gəlişi məhəl-

lədə yenidən canlanma yaradır. Bütün qohumları yenə bir araya yığılır. Yenə qonaqlıqlar, çal-çağırlı günlər başlayır. 10 gün ərzində demək olar ki, bütün yaxın qohumlarla görüşüb, həyatını doya-doya yaşayır. Sanki şəhidliyi ürəyinə daman Davud məzuniyyət zamanı onunla görüşən bütün qohumlara bir daha gəlməyəcəyini, bu görüşün son görüş olduğunu deyir. Şəhid olacağını dilinə gətirərək,"Mən şəhid olacam, qayıtmayacam"-deyən, Davudun sözlərini o zaman heç kəs ciddi qəbul etmir.

Məzuniyyətin son günü evdən çıxıb hərbi hissəyə qayıdarkən yolüstü dükana girir. Dükançı ilə də sağollaşıb çıxarkən, dükançı deyir:

-Sağ-salamat qayıt, inşallah yenə görüşərik.

Davud isə "mən qayıtmayacağam, şəhid olacam"-deyərək, gülə-gülə dükandan çıxır.

Bəlkə də, şəhidliyi ona agah olduğundan, bəlkə də şəhid olmağı arzuladığından deyir. Ancaq bu kəlmələr sonralar reallaşanda hər kəsin qəlbini dağlayır.

Davud xidmətini başa vurmaq üçün hərbi hissəyə qayıdır. Günlər sərhəddə bir-birini əvəz edir.



May ayı yazın ən şıltaq ayı olur. Hava sabit keçmir. Hələ dağlıq ərazilərdə hava tez-tez yağışlı, dumanlı olur. O gecə də hava dəhşət idi. Göydə bir şimşək çaxırdı ki, elə bil buludlar səmada qılınc toqqaşdırırdı. O gecə Səlimə xanımın da yuxusu ərşə çəkilmişdi. Ürəyində səbəbini bilmədiyi narahatçılıq vardı. Nəfəs aldıqca sanki ürəyinə bıçaq sancırdılar.

Hərbi hissədə qəfil verilən həyəcan siqnalı ilə əsgərlər cəld vəzifə başına atılırlar. Davud da əmrə tabe olaraq hərbi tapşırığı yerinə yetirməyə can atır. Döyüş mövqeyində döyüş tapşırığını yerinə yetirərkən çox güclü şimşək çaxır. Səsdən qulaqlar tutulur. Sanki yerlə göy toqquşur. Ətrafdakılar nə baş verdiyini anlamağa çalışırlar. Şimşəyin səmadan yer üzünə atdığı qılıncı Davudun sinəsinə dəyir. Elə oradaca göylərin açılan qapısından cənnətə keçən Davud bir daha ailəsinin yanına qayıda bilmir.

Səlimə xanım o gecəni sabah edir. Səhər hərbi hissədən gələn zəng ailənin dincliyinə son qoyur.O sabah Əmircan gözlərini ana fəryadı ilə açır. Yer-göy titrəyir. Buludlar ağlayır. Torpaq bağrını yarıb vətən oğlunu qoynuna alır. Əmircan 11 ayın əsgərini Məmmədlilər nəslinin yeganə oğul nəvəsini torpağın qoynuna köçürür. Davudun tabutunun önündə onun şəklini aparan uşaqlıq dostu, can yoldaşı xalası oğlu İsgəndər olur.

Bu itki doğmalar arasında İsgəndərə daha çox təsir edir. O təkcə xalası oğlunu deyil, uşaqlıq dostunu, sirdaşını itirir. Davud dəfn olunduğu bir gündən hər gün məzarını ziyarət edir, saatlarla dostunun şəklinə baxıb, ötən günlərini xatırlayır. Məzarını ziyarət etdiyi hər gün "Əxi, tezliklə yanına gələcəm" deyir.

Rəssam olan İsgəndər hətta bir gecə Davudun məzarının şəklini sinəsinə, ürəyinin üstünə öz əlləri ilə döymə edir.



Şəhid anasına təsəlli ola bilmək üçün İsgəndərin qardaşının yoldaşı Nuray xanım Davudun şəhidliyindən təsirlənərək ona şeir həsr edib ailəsinə göndərir.

*Bayrağa bükülüb gəldin o gün sən,*
*Əydin qəddimizi sən, ay Davudum.*
*Ayrıldı ruhumuz sanki bədəndən,*
*Yatdığın torpağa mən qurban olum.*

*Ah, nalə səsləri dayandı ərşə,*
*De bu olanları unudum necə?*
*Çalındı son laylan tabutun üstə,*
*Dağ çəkdin, ay Davud, sən qəlbimizə.*

*Düzülüb ard-arda deyilir ağı,*
*Viran oldu cavan ömrünün bağı.*
*Söndürdün, ay Davud, bizim ocağı,*
*Çəkdin sinəmizə sən hicran dağı.*

*Necə dözək, bu acıya nə edək?*
*Allahın qisməti beləymiş demək.*
*Nur üzlü şəhidim, rahat uyu, yat,*
*Qurdun qəlbimizdə "Davud" adlı taxt.*

*Zülümlə, zillətlə səni böyüdən,*
*Ananın bənizi saralıb, solub.*
*Səssizcə göz yaşın qəlbinə süzən,*
*Atan bir gecədə yüz yaşa dolub.*

*Seçdin şəhadəti, tərk etdin bizi,*
*Qalxdın Allahın haqq dərgahına.*
*Niyyətin, amalın şəhidlik idi,*
*Ərdin muradına, yetdin kamına.*

*Yoxluğun bizlərə çox böyük yükdü,*
*Ey cənnət qoxulu şəhidim, mənim.*
*Deyirlər yaşayır, şəhidlər ölmür,*
*Haqqını halal et, haqqın böyükdü.*

Bu şeiri qohumların ststusunda görən Səlimə xanım çox təsirlənir. Günlərdir balasının yoxluğuna alışa bilməyən anaya bir təsəlli olur.

Davud şəhid olduğu bir gündən evlərinə gələn qonaqların sayı daha da artır. Hər kəs Səlimə xanım və Fuad əmiyə təsəlli verib dəstək olmağa çalışır. Elə bu ərəfələrdə hələ Davudun şəhadətindən 40 gün keçməmiş bir gün İsgəndər dostları ilə birlikdə vaxtı ilə də Davudla tez-tez getdikləri dənizkənarı qayalıqlara gedərək Davudla olan xatirələrini bir də yada salmaq istəyir. Dostlar birləşib dənizə gedirlər. Mavi dənizin dalğalı ləpələrini seyr etdikcə Davudu xatırlayan İsgəndər xəyallara dalarkən anidən dostlarının dənizdə boğulmağa başladığını hiss edir. İsgəndər cəld özünü suya ataraq dostlarını xilas etməyə çalışır. Dostlarından birini sahilə çıxardıqdan sonra digər dostu Samiri xilas etmək üçün yenidən Xəzərin qatil sularına atılır. Lakin bu zaman gözü dönmüş dalğalar onun ayaqlarından yapışaraq dənizin dərinliklərinə aparır. Samir və İsgəndər dənizin sularında bataraq, dərinliyə qərq olur.





2023-cü ilin 20-si iyunda baş verən bu hadisədən sonra onların cansız bədənləri 3 gün dəniz sularından tapılmır. İyunun 23-ü şəhid Davudun atası Fuad əminin aramsız axtarışları nəticəsində İsgəndərin və Samirin  cansız bədənləri Xəzərin Mərdəkan sahilindən tapılır.

Yenə bu ailənin ürəyi parçalanır. Səlimə xanım övladının acısına alışa bilməmiş bir də bacısıoğlunun yoxluğunu yaşayır. Ard-arda iki ayın eyni günü təqvimin 23 rəqəmi bu ailəyə göz yaşı gətirir. Mayın 23-ü öz oğlu Davudu torpağın qoynuna verən Səlimə xanımgil iyunun 23-ü bacısının balasını torpağın qoynuna verirlər.

O gecə Səlimə xanım bir yuxu görür. Hər tərəf parlaq işıqlarla əhatə olunmuş bir yer görünür. Göylərdən yerə uzanan al-əlvan çiçəklərlə bəzənmiş pillələrin başında Davud dayanıb. İsgəndər isə yerdən ona doğru gedir. İki dost yenidən cənnətdə bir-birinə qovuşur.

***Mən dünən doğulub, bu gün isə öldüm***
***(Qohumu Nuray xanımdan İsgəndərin xatirəsinə***
***həsr olunur.)***

*Mən dünən doğulub, bu günsə öldüm,*
*Apardı dəryaya məni dalğalar.*
*Doyunca yaşayıb, nə ömür sürdüm,*
*Apardı qoynuna məni dəryalar.*

*Mən dünən doğulub, bu günsə öldüm,*
*Çatmadı dadıma dost dediklərim.*
*Doyunca ağlayıb, nə də ki güldüm,*
*Yanmadı halıma dost dediklərim.*

*Mən dünən doğulub, bu günsə öldüm,*
*Baxanda dənizə xatırla məni.*
*Nə nişan aparıb , nə də toy gördüm,*
*Gedəndə toylara xatırla məni.*

*Mən dünən yaşayıb, bu günsə öldüm,*
*Ağlama, anacan, qismətim budu.*
*Nə yatdım, nə də ki, bir yuxu gördüm,*
*Ağlama, anacan, beşiyim sudu.*



# Qələmi ağladan şeirlər





## Şəhid balam Davudum

*Mən hər şimşək çaxanda sinəmdən vurururam,*
*Hər yağış göz yaşımdı, həyatdan yoruluram.*
*Yoruluram evimin sənsiz qalan yerindən,*
*Fələk yıxdı qəlbimi yaraladı dərindən.*

*Mənim bircə oğlumun bitmədi heç xidməti,*
*Bir də dönüb evinə sağ qayıtmadı qəti.*
*Dedilər ki, göylərdən gələn şimşək apardı.*
*Bircə oğul balamı bizdən alıb qopardı.*

*Qızlarımın dayağı, köməyiydi Davudum,*
*Evimizin ümidi, gərəyiydi Davudum.*
*O qurduğum xəyallar gözlərimdən tökülür,*
*Xəyallarım birbəbir məzarında sökülür.*

*Cavan balam, göz nurum köçdü, getdi cənnətə,*
*Torpaq yaxşı sahib çıx, verdiyim əmanətə.*
*Bəlkə bir gün görüşdük cənnətin qapısında,*
*Bəlkə mənim qəlbim də rahatlıq tapa onda.*

***01.11.2023***

## Dənizdə batan dostların xatirəsinə

*Samir üzmək üçün atıldı suya,*
*Bilməzdi dalğalar aparar onu,*
*Xəzər öz qoynuna götürüb birdən,*
*Bu fani dünyadan qoparar onu.*

*İsgəndər gördü ki, dostu can verir,*
*Xilas etmək üçün atıldı suya.*
*Bir kimsə olmadı o an sahildə,*
*Olmadı onların səsini duya.*

*İki dost beləcə köçdü cənnətə,*
*Dənizdən salamat çıxa bilmədi.*
*Zalım fələyin də insafı yoxmuş,*
*Qaytarıb onları geri vermədi.*

*Samirlə İsgəndər iki dost idi,*
*O mavi dənizə qərq oldu getdi.*
*Elə cavan yaşda, boğuldu onlar.*
*Bu ölüm hər kəsi pərişan etdi.*

***02.12.2023***





## Dərd üstə dərd yaşadıq

*Ay Allah, bu necə burulğan idi,*
*Gəldi üstümüzü aldı buludlar.*
*Bala həsrətiylə yandı qəlbimiz,*
*Gözümə yaşları saldı buludlar.*

*Əvvəl Davudumun şəhid xəbəri,*
*Tarimar eylədi günlərimizi.*
*Sonra da İsgəndər köçdü həyatdan,*
*Diriykən öldürdü o anlar bizi.*

*Dənizin suyunda boğuldu oğlu,*
*Söndü bacımın da söndü çırağı.*
*İlahi, hər yaşda boş qala bilər,*
*Yazıq anaların isti qucağı.*

*Bilmədim oğlumun dərdinə yanım,*
*Yoxsa ki, bacıma olum təsəlli.*
*Mən indi bildim ki, necə sınarmış,*
*Yanında qalmarmış insanın əli.*

*Heç nəyə zərrə tək qalmayıb maraq,*
*Daha günlərin də mənası yoxdur.*
*Bu dərdlə ürəyim elə yanır ki,*
*Aldığım hər nəfəs zəhərli oxdur.*

***01.11.2023***






Məmmədli
Davud
Fuad oğlu
03.10.2003 - 23.05.2023
Dünya - var kimi görünən bir yalan,
Allah - yox kimi görünən bir gerçəkdir


Əhmədzadə
İsgəndər

## Cənnət qonşuları

*Salam xalamoğlu, salam əziz dost,*
*Demişdim yanına gələcəyəm mən.*
*Gördünmü, sözlərim əbəs deyildi,*
*Qoymadım cənnətdə darıxasan sən.*

*Biz ki, uşaqlıqdan birgə böyüdük,*
*Hər günü bir yerdə vurardıq başa.*
*"Can qurban"-deyərdik, mərdliyimizlə,*
*Hər zaman sadiqdik dosta-yoldaşa.*

*Hətta əkiz kimi bir geyinərdik,*
*Yeyib-içdiyimiz ayrı getməzdi.*
*Ömrümün ən gözəl anları idi,*
*Səninlə birlikdə günlər bitməzdi.*

*Mən sənsiz həyatdan zövq almadım heç,*
*Darıxıb yanına gəldim özüm də.*
*Sən şəhid olduğun gündən itirdi,*
*Bütün marağını dünya gözümdə.*

***01.11.2023***

## Dəniz aldı balamı

***(İsgəndərin anası Aygün xanımın dilindən)***

*Bilmədim Xəzərin qəzəbi nəydi?*
*Kim onu incitdi axı bu qədər?*
*Niyə birdən-birə coşdu ləpələr?*
*Həmin gün bəxtimə yazıldı kədər.*

*Mənim İsgəndərim dərin sulara,*
*Qərq oldu, əbədi ayrıldı bizdən.*
*O, Xəzər balamı aldı əlimdən,*
*Vurdu dalğalarla düz qəlbimizdən.*

*Boğdu sularıyla, boğdu balamı,*
*Arzular dənizdə puç oldu getdi.*
*O cavan balamın, cavan oğlumun,*
*Ömür çiçəkləri tez soldu getdi.*

*Qapımda qırmızı döndü qaraya,*
*Subaydı, toy etmək qismət olmadı.*
*Allah, daha bəsdir bu qədər əzab,*
*Vallah qəlbimizdə tab da qalmadı.*

*Bacımın balası şəhid olanda,*
*Bilməzdim əcəlin gözü doymayıb.*
*Mənim də oğlumu alar əlimdən,*
*Hələ can almaqdan o yorulmayıb.*

*İlahi, bu dərdə biz necə dözək?*
*Necə ürəyimiz yanmasın axı?*
*O əli qurumuş əcəl gələrək,*
*Çəkdi qəlbimizə ən ağır dağı.*

***13.11.2023***




## Burda iki məzar var

*Burda iki məzar var.*
*Sakinləri cavandı, ürəkləri dağlayır.*
*Burda iki ana var.*
*Nə zaman gəlirəm elə hey ağlayır.*
*Biri şəhid Davuddur məzarda yatan,*
*Biri İsgəndərdir dənizdə batan.*
*İki xalauşağı, iki cavan oğlan,*
*Kam ala bilmədi onlar həyatdan.*
*Analar qəlbini dağlayır yaman,*

*Necə insafsızmış bu fani zaman.*
*Nə toyu olmayıb, nə də nişanı,*
*O iki anaya təsəlli hanı?*
*De, nəyə sığınıb, nəyə tutunsun?*
*De, kimlə sevinsin, kimlə ovunsun?*
*Necə sarısın ki, qəlbdə yaranı?*
*Göz yaşı içində keçir hər anı.*
*Hərdən torpağa da tutur qəzəbi,*
*Deyir ki, :"qurusun əcəlin əli,*
*Qurusun balamı aldığı yerdə.*
*Ay Allah, biz necə dözək bu dərdə?*
*Necə alışmasın, yanmasın ürək?*
*Olmadı dalğalar, olmadı kömək.*
*Davudun şəhidlik xəbəri gəldi,*
*Sanra da İsgəndər qəlbləri dəldi.*
*Köçdü bu dünyadan köçdü cənnətə,*
*Saldılar bizləri qara zülmətə."*

***11.13.2023***






## Xala məni oxşa yenə

***(Davudun xalası Aynur xanımın dilindən)***

*Bu gecə yuxuma gəlmişdin Davud*
*Baxdın gözlərimə, baxdın həsrətlə.*
*Elə darıxmışdım, ay xalan qurban,*
*Bilmədim neyləyim axı bu dərdlə.*

*Dedin ki, ay xala sən daha məni,*
*Niyə oxşamırsan, layla demirsən.*
*Yoxsa unutmusan sən Davudunu,*
*De görüm sən məni daha sevmirsən?"*

*Tutuldum, ay bala, nə deyim axı,*
*Sənin şəhidliyin göynətdi bizi.*
*Mənim heç bir zaman səsim çıxmazdı,*
*Sən yaman yandırdın bu qəlbimizi.*

*Ürəyim alışıb, elə yandı ki,*
*Lal olan dilim də danışdı bala.*
*Dil deyib ağladım həmin gün səni*
*Gör bizi salmısan, Davud nə hala.*

***16.11.2023***

## Mənim qəlbimdəsən qardaş

***(şəhid Davudun bacısı Fidanın dilindən)***

*Bir sabah ah-nalə ucaldı göyə,*
*Anamın fəryadı qorxutdu bizi.*
*Atamın gözündən düşən yaşları,*
*Od salıb yandırdı bu qəlbimizi.*

*Dedilər:”qardaşın şəhid olubdu,”*
*Biz səni xidmətə göndərdik axı.*
*Mənə yuxu kimi gəlir bu günlər,*
*Yenə gözləyirəm sənli sabahı.*

*Sanki, oyananda bir sabah yenə,*
*Görəcəm gəlmisən, evimizdəsən.*
*Səni çox sevirik əziz qardaşım,*
*Sən bizim hər zaman qəlbimizdəsən.*

*Yenə qayıdasan, gələsən Davud,*
*Bütün bu olanlar yuxuya dönə.*
*Yenə əyləşəsən süfrə başında,*
*Yenə ürəyimiz sənlə sevinə.*

***17.11.2023***

## Şimşəklərdən qorxuram

***(şəhid Davudun bacısı Əsnanın dilindən)***

*Uşaq vaxtı sən məni,*
*Cırnadardın həmişə.*
*Kaş yenidən qayıdıb,*
*Gedə bilək keçmişə.*

*O sənli günlərimiz*
*Bir də yaşana, qardaş.*
*Sənin şəhid xəbərin*
*Gerçək olmayaydı kaş.*

*Elə darıxıram ki,*
*Səndən ötrü, ay Davud.*
*Səni bizdən ayırıb,*
*Düşmən oldumu bulud?*

*Şimşəklərdən qorxuram,*
*Daha bir də çaxmasın.*
*Ağlatmasın bizləri*
*Qəlbimizi yaxmasın.*

***17.11.2023***



# Ağlasın buludlar



*Ey göy üzü, şimşəyin*
*Gül balamı apardı.*
*Şəhid etdi xidmətdə,*
*Bizdən alıb qopardı.*

*İndi qopar tufanı,*
*Buludların ağlasın.*
*Baxıb cavan məzara,*
*Torpaq sinə dağlasın.*

*Mənim balam görmədi,*
*Ömrün bahar çağını.*
*Söndürdün şimşəyinlə,*
*Evimin çırağını*

*Necə fəryad etməyim,*
*Bircə oğlum var idi.*
*Dar günümün gərəyi,*
*Gözəl arzular idi.*

*Çox gördünmü balamın,*
*Yaşadığı günləri.*
*Nəyimə lazım axı,*
*Neynim onsuz illəri?*

***17.11.2023***

# Şəhid bulağı

Əmircan qəsəbəsində Qulu Quluyev küçəsində yaşayan, məhəllənin sevimlisi, Məmmədlilər ailəsinin yeganə oğul övladı şəhid Davudun bulağıdır. Şəhidliyi ürəkləri dağlayan 11 ayın əsgəri olan, Davud döyüş tapşırığını yerinə yetirərkən şimşək vurması nəticəsində şəhid olub. Onun şəhadətindən sonra ürəyi yaralı valideynləri Davudun xatirələrini yaşada bilmək üçün evlərinə yaxın ərazidə bulaq tikdirirlər. Oktyabrın 3-ü Davudun cənnətdə keçən ilk ad gününə valideynlərinin hədiyyəsi olur bu bulaq. Davudun şəkli əks olunan bulağı nəinki məhəllə sakinləri eləcə də yoldan ötənlər hər gün ziyarət edirlər.



## Şəhid Davud bulağı

*Burada bir bulaq var,*
*Suyu göz yaşı kimi.*
*Bu bulağın sahibi ,*
*İncitməyib heç kimi.*

*Ömrün cavan yaşında,*
*Şəhid olub ucalıb.*
*Bax bu gördüyün bulaq,*
*Ondan yadigar qalıb.*

*İndi hər gün nə qədər,*
*Qonağı var bulağın.*
*Sevimli məkanıdır,*
*Hər qocanın, uşağın.*

*Bu bulaqda yaşayır,*
*Bir şəhidin adı da.*
*Tamam fərqli olurmuş,*
*Bulaqların dadı da.*

***14.12.2023***



# Şimşəyin fəryadı

***(əfsanə)***

Şimşək elə fəryad qoparmışdı, elə fəryad qoparmışdı ki, elə bil qızılı qılıncı ilə göyün sinəsini dağlayırdı. Onun bu halına dözə bilməyən buludlar, səmada bir yerə toplaşıb ağlamağa başladılar. Göz yaşları mavi Xəzərin üzərinə düşdükcə, dənizin duzlu sularına qarışır, dənizsə bu fəryada qoşulub ləpələrini sahilin qayalıqlarına çırpırdı.

Xəzər bu qədər göz yaşına tab edə bilməyib üzünü göylərə tutub qışqırır.

-Ey, Şimşək, de görüm axı nədir səni bu qədər göynədən. Niyə coşmusan yenə?

Şimşək dərindən ah çəkərək, üzünü Xəzərə tutub dərdini danışmağa başlayır.

-Ey Xəzər, mən elə bir iş tutmuşam ki, bir ananın göz yaşlarına səbəb olub. Mən elə bir iş tutmuşam ki, bir ata arxasız-köməksiz qalıb. Mən elə bir iş tutmuşam ki, iki bacının gözlərini yolda qoymuşam.

Xəzər diqqətlə Şimşəyi dinləyirdi. Şimşək köksünü ötürüb sözlərinə davam edir.

-Bir gün yanıma cənnətin mələkləri gəlmişdilər. Mənə dedilər ki, yer üzündə bir mələk var. Allahın əmridir ki, onu cənnətə sən yola salasan. Mən də Allahın əmridirsə başım, gözüm üstünə dedim. Sonra həmin mələyin kim olduğunu soruşdum. Dedilər ki, Davud Məmmədli adında bir əsgərdir. 11 aydır vətən keşiyi çəkir. O qədər gözəl biridir ki, Allah yer üzünün çirkabından qorumaq üçün ona cənnətində yer edib. Davud mənim vasitəmlə cənnətə getməlidir.

Şimşək biraz da bərkdən çaxmağa başlayınca göy üzündə elə bil ki, qılınclar oynayırdı. Xəzər səbrini basa bilməyib dillənir.

-Bəs sənə bu qədər fəryad etdirən nədir? Sən ki, Allahın əmrini yerinə yetirmisən.

Şimşək dərin bir hüznlə dillənir.

-Mən Allahın əmrini yerinə yetirmişəm ancaq indi Əmircanda Şəhid Davud Məmmədlinin məzarının üstündə anasının göz yaşlarını görəndə ürəyim parçalanır. Ana fəryadı bağrımı yarır.

Xəzər buludlardan tökülən göz yaşlarını içinə çəkib dillənir.

-Bəs mən nə edim o zaman? Sənin cənnətə göndərdiyin Davudun xalası oğlu İsgəndəri də mən basmışam bağrıma. Davudun dərdinə dözə bilməyən İsgəndər hər gün sahilə gəlib dua edirdi dostuna tez qovuşsun deyə. Allah dualarını eşidib mələyini göndərmişdi yanıma. Davud cənnətdə tək qalmasın deyə dostunu da yanına göndərmək mənə tapşırılmışdı. Həmin gün dalğalarım İsgəndəri qucağına götürüb torpağın qoynuna yola saldı. Sənin dediyin məzarın arxasındakı məzar da İsgəndərin məzarıdır. Üzərindəki şəkil də İsgəndərin Davudu son mənzilə yola salarkən çəkdirdiyi şəkildir. İki məzar  da iki bacının göz yaşlarıyla yuyulur.

-Şimşək eşitdiklərindən bir daha coşdu amma bu dəfə elə coşdu ki, buludların göz yaşları dənizin sularını qayalara çırpdıqca, sahilin qumları da dənizin dibinə doğru yol aldı. Elə coşdu ki, dəniz şimşəyin gurultusuna qarışdı. Elə bil yer yerindən oynadı. Torpaq silkələndi. Və birdən birə buludların arxasından gözləri qamaşdıran bir nur yayılmağa başladı. Səmadan qara buludları dağıdan bu nurda iki sima əks olunmuşdu. Gülümsəyən iki sima. Cənnətdən gələn iki qonaq.



## İslanmış yaylıq

**(Hekayə)**

Dekabrın 31-i axşam saat 10-11 arası idi. Qızlar öz otağında telefonla oynayırdı. Fuad əmi isə televizora baxırdı. Səlimə xanım mətbəxdə yır-yığış edirdi. Başını qatmağa çalışsa da ürəyinin içində narahatlıq hissi vardı. Tez-tez saata baxır, sanki harasa tələsirdi. Mətbəxdə işlərini bitirdikdən sonra qızlara baş çəkmək üçün otağa yaxınlaşıb, qapısını açdı. Telefonun səsi gəlsə də, qızları yuxu tutmuşdu. İçəri girib telefonu götürdü. Söndürüb kənara qoydu. Daha sonra isə qızların üstünü örtüb otaqdan çıxdı. Fuad əmi Səlimə xanıma baxaraq dedi:

-Yaman yuxum gəlir. Televizora baxmasan söndürərsən.

-Yaxşı söndürərəm.-deyə Səlimə xanım cavab verdi.

Fuad əmini yuxu tutmuşdu. Saat 12-yə az qalmışdı. Səlimə xanım evdəkilərin yatdığına əmin olduqdan sonra qara yaylığını başına atıb, qara paltosunun bir qolunu geyib digərini də geyinə-geyinə tələsik evdən çıxdı. Bayırda heç kəs yox idi. Görünür hər kəsin başı evdə ailəsi ilə birlikdə bayramı qeyd etməyə qarışmışdı. İti addımlarla dayanacağa çatsa da, dayanacaqda taksi tapa bilmədi. O dayanmadan yoluna davam etdi. Elə bilirdi ki, özü bu saat qanad açıb uçacaq və ürəyinin apardığı o məkana ən sürətli taksilərdən də tez çatacaq.

Fikirli-fikirli qəlbində öz-özüylə danışa-danışa bir də baxdı ki, Şəhidlər Xiyabanının qarşısındadır. Yerişini yubatmadan irəliləməyə davam etdi. Birdən ayaqları dayandı. Dizlərini yerə qoyub buz kimi məzar daşını qucaqladı.

-Bayramın mübarək, bala, bayramın mübarək.-deyərək, necə ağladısa, Xiyabanın sükunəti pozuldu. Səlimənin hıçqırıqları qəlbini dağladıqca məzarı daha bərk qucaqlayırdı. Birdən qəfil atılan fişənglərin səsinə yerindən diksinib ayağa qalxdı. Hava çox soyuq idi. Külək ağacların budaqlarını bir-birinə çırpırdı. Ana ürəyi isə elə yanırdı ki, soyuğu hiss etmirdi. Səlimə evə qayıtmalı idi. Amma oğlundan ayrılıb getmək də istəmirdi. Lakin getməliydi. Çünki qızlarının da, onun qayğısına ehtiyacı vardı. Həm də Fuad əmi oyanıb onu evdə görməsə çox narahat olardı.

Ayaqlarını sürüyə-sürüyə məzarın yanından uzaqlaşıb xiyabanın çıxışına doğru irəlilədi. Gələrkən dayanmaq bilməyən ayaqlar dünyanın yükünü daşımış kimi elə yorğun idi ki, güclə yeriyirdi. Bir təhər gəlib evə çatdı. Soyuqdan donmuş əlləri titrəyə-titrəyə açarı cibindən çıxarıb qapını açdı. Ev səsiz idi. Deməli hər kəs yatırdı. Onun evdə olmadığını heç kəs hiss etməmişdi. Səlimə mətbəxə keçib biraz isindikdən sonra yatmağa getdi.

***

Səhər saat 5 idi. Fuad əmi yuxudan oyanıb astaca otaqdan çıxmışdı ki, heç kəsi oyatmasın. Əynini geyinib üz tutdu birbaşa Şəhidlər Xiyabanına. Əslində axşamdan getmək fikri var idi. Lakin, nə qızları evdə tək qoymaq istəmirdi, nə də bayram günü Səlimənin saatlarla şəhid balasının məzarının üstə ağlamasına ürəyi zarı deyildi. Odur ki, səhər tezdən evdəkilər oyanmamış evdən çıxıb şəhid oğlunun məzarını tək ziyarət etməyə qərar vermişdi.

Şəhidlər xiyabanına çatıb Davudun məzarına qədər dayanmadan irəlilədi. Məzara çatanda bir anlıq yerində donub qaldı. Məzarın üzərində qara yaylıq var idi. Əlini uzadıb yaylığı götürəndə islandığını gördü. Səlimənin yaylığı idi. Gecə yağış yağmamışdı. Amma şəhid anası o gecə balasının məzarında olmuşdu. Yaylığı isladan isə şəhid anasının göz yaşları idi.

***05.01.2024***



## Şəhid Əbdüləli Abbasov

***(Bu şeir şəhid Davud Məmmədlinin şəhid babasına həsr olunur)***

*Şəhidlərdən deyəndə*
*Yada salaq biz gərək,*
*Şəhid Əbdüləlini*
*Tanısın qoy gələcək.*

*O da vətən uğrunda,*
*Keçib əziz canından.*
*Dostu da şəhid olub,*
*Ayrılmayıb yanından.*

*İllər sonra tapılıb,*
*O cansız bədənləri.*
*Həmin an göz yaşına,*
*Qərq edib görənləri.*

*Torpaq açıb qoynunu,*
*İllər sonra oğluna.*
*Sinəsini yararaq*
*Alıb onu qoynuna.*

***17.11.2023***




Abbasov Əbdül Balağa oğlu 1941-1945-ci illərdə gedən müharibədə şəhid olub. Nəşi 1978-ci ildə vətənə gətirilərək Suraxanı rayonu Əmircan qəsəbəsində dəfn olunub.



# Əmircan şəhidlər xiyabanında qonşu olan şəhidlər



*Əmircan xiyabanı, ürəkləri dağlayır.*
*Burda hər gün analar, məzar üstə ağlayır.*
*Ağlayır yarım qalan arzulara sarılıb,*
*Daha anaların da xəyalları dağılıb.*

## Şəhid Hüseynov Orxan Bəhman oğlu



Hüseynov Orxan Bəhman oğlu 25 iyul 1991-ci ildə Suraxanı rayon Əmircan qəsəbəsində anadan olub. 1997-ci ildə Cavanşir Rəhimov adına 146 saylı məktəbdə ilk təhsilə başlayıb. 2008-ci ildə məktəbi bitirib. Bir il sonra Heydər Əliyev adına Hərbi Akademiyaya qəbul olub. 2013-cü ildə akademiyanı yüksək fərqlənmə diplomu ilə bitirib. 2013-2014-cü illərdə Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində təkmilləşdirmə kursu keçib. 2014-cü ildə Qusar şəhərində tağım komandiri olaraq hərbi xidmətə başlayıb. 2017-ci ildə Tərtərdə, daha sonra isə Yevlaxda xidmətini davam etdirib.

Müharibə zamanı Bölük komandiri kimi hərbi xidmətini yerinə yetirib. Tərtər-Ağdərə rayonları istiqamətində döyüş yolu keçib.

27 sentyabr 2020-ci ildə Azərbaycan Respublikasının bütövlüyü uğrunda Tərtər-Ağdərə rayonları istiqamətində gedən döyüşlər zamanı hərbi əməliyyatını yerinə yetirərkən şəhid olub.

Orxan Hüseynov 5 oktyabr 2020-ci ildə Suraxanı rayon Əmircan qəsəbəsində xalqın böyük izdihamı ilə torpağa tapşırılıb.

Hərbi xidmətdə göstərdiyi şücaətlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən şə-

hid Orxan Hüseynov "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Qüsursuz xidmətə görə", "Şücaətə görə"medalları və "Vətənə xidmətə görə" 3-cü dərəcəli ordenlə təltif olunub.

İki oğlu vətənə əmanət qalıb. Son beşiyinin üzünü görməyib. Şəhidin üzünü görmədiyi oğlu öz adını daşıyır.

## Şəhid Orxan Hüseynov

*O qədər doludur sinəm inan ki,*
*Mən səndən nə qədər kitab yazaram.*
*Bir ömür əlimdə susmaz qələmim,*
*Belə igidlikdən yazmağa varam.*

*Ey cənab Leytenant, qürur yerimiz,*
*Əmircan şəhidi, baş tacımızsan.*
*Tanrı dərgahında şəfaətçimiz,*
*Hətta cənnətdə də əlacımızsan.*

*Hünərin o qədər, saysız-hesabsız,*
*De hansı birindən danışım indi.*
*Ali baş komandan qiymətləndirib,*
*Verilən medallar, orden sənindi.*

*Sən vətən uğrunda şəhid olaraq*
*İki oğul verdin xalqa əmanət.*
*Adını qəlbinə əbədi yazar,*
*Xalq da igidini unutmaz əlbət.*

***25.11.2023***

## Şəhid Kirxlarov Nazim Nadir oğlu



Kirxlarov Nazim Nadir oğlu 20 dekabr 1993-cü ildə Suraxanı rayonu Əmircan qəsəbəsində anadan olub. 1999-cu ildə Əmircan qəsəbəsindəki 114 saylı məktəbin birinci sinfinə daxil olub. Burada iki il təhsil aldıqdan sonra təhsilini qəsəbənin 226 saylı məktəbində davam etdirib. 2008-ci ildə həmin məktəbin 9-cu sinfini bitirərək 1 saylı peşə məktəbinə qəbul olub. Komputer ixtisası üzrə təhsil alıb. 2011-ci ildə Nazim Kirxlarov vətənə xidmət üçün hərbi xitmətə çağrılıb. 2011-2013-cü illərdə hərbi xidmətini Şamaxı rayonunda yerləşən “N” saylı hərbi hissədə yerinə yetirib. Xidməti başa vurduqdan sonra hərbiçi olmağa qərar verən Nazim arzusunu həyata keçirərək 4 il Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında, daha sonra isə şəhid olduğu günə qədər Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Sülhməramlı Taborunda xidmət edib.

27 sentyabr 2020-ci ildə başlayan vətən müharibəsində vətən eşqi ilə yaşayan oğullardan biri tək Nazim də savaşlara qatılaraq, döyüşlərin ən qaynar nöqtələrində düşmənlə vuruşub. Qarabağın azadlığı üçün öz şücaətini göstərib. 21 oktyabr 2020-ci il tarixində Qubadlı rayonunun düşmənlərdən azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub. Oktyabrın 23-də Suraxanı

rayonu Əmircan qəsəbəsində torpağa tapşırılan qəhrəman Prezidentimizin sərəncamına əsasən "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Vətən uğrunda" medalları və "Vətənə xidmətə görə" 3-cü dərəcəli ordenlə təltif olunub.

## Şəhid Nazim Kirxlarov

*Qısa ömür yolunu,*
*Şərəflə tamamladın.*
*Cənnətdə şəhidləri,*
*Qürurla salamladın.*

*İgidliyin dastan tək,*
*Dildən-dilə dolaşdı.*
*Adın dağlardan keçib,*
*Adın sərhədlər aşdı.*

*Məzarının önündə,*
*İzdihamlar yaşanır,*
*Baş əyərək qarşında,*
*Səni fəxrlə anır.*

*Xalqının ürəyinə,*
*Yazıb getdin adını.*
*Yaşatdın bu millətə,*
*Azadlığın dadını.*

*Ruhun şad olsun, igid,*
*Unutmarıq biz səni.*
*Sən öz şücaətinlə,*
*Məhv elyədin düşməni.*

***25.11.2023***

# Şəhid Salayev Elşən Fuad oğlu



Salayev Elşən Fuad oğlu 8 iyun 1998-ci ildə Bakı şəhərində anadan olub. 2015-ci ildə 264 saylı məktəb-liseyi bitirib. Elə həmin il 617 balla Bakı Dövlət Universitetinin Tarix fakültəsinə qəbul olub. Universitet illərində həm respublikada, həm də beynəlxalq səviyyəli tədbirlərdə aktiv iştirak edib. Universitet təhsilinin ikinci ilində "Erasmus+" proqramı ilə Türkiyənin Cümhuriyyət Universitetində yarımillik bir müddətdə təhsilini davam etdirib.

2017-2018-ci illərdə Elşən Salayev 2013-cü ildə yaradılan Oxford Universitetinin Nizami Gəncəvi mərkəzinin mühüm elmi təşəbbüslərdən biri olan "Bərdə arxeoloji tədqiqatları" layihəsində iştirak edib. İngilis və rus dillərini mükəmməl bilən gənc tələbənin qəlbindəki vətən sevgisi onun təhsil sevgisindən daha güclü olub. Elşən Salayev 2019-cu ildə təhsilini başa vurub. 2020-ci ilin yanvar ayı hərbi xidmətə yola düşüb.Vətən müharibəsinin iştirakçısına çevrilən Elşənin döyüş yolu Tərtər rayonunun Talış kəndindən keçib. Oktyabrın 15-dən sonra Elşəndən heç bir xəbər ala bilməyən ailəsi narahat olmağa başlayıb. Bir ay sonra isə Elşən Salayevin vətən torpaqlarının düşməndən azad olunması uğrunda gedən döyüşlər zamanı şəhid olduğu bildirilib.

18 noyabr 2020-ci ildə qəhrəman şəhid, vətənin istetadlı gənci Suraxanı rayon Əmircan qəsəbəsində xalqın böyük izdihamı ilə torpağa tapşırılıb. Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunub.

## Şəhid Elşən Salayev

*Gör necə oğullar yetirib yurdum,*
*Savaşdan qorxmadan öndə gediblər.*
*O mənfur düşmənin dərsini verib,*
*Vətən torpağını xilas ediblər.*

*Həmin oğullardan biridir Elşən,*
*Təhsili nümunə gənc nəsillərə.*
*Gördüyü işlərlə tanınır indi,*
*Şöhrəti yayılıb uzaq ellərə.*

*Xatirə parkı var öz ölkəmizdə*
*Türkiyə hörmətlə adını anır.*
*Belə fəal gənci itirdi deyə*
*İndi yoxluğuna bütün xalq yanır.*

*Lakin unutmarıq bircə an belə,*
*Vətən torpağında yatan canları.*
*Bu torpaq nəfəs tək əzizdir bizə,*
*Torpağa tökülüb şəhid qanları.*

***25.11.2025***

## Şəhid Səmədli Elşən Bayram oğlu



Səmədli Elşən Bayram oğlu 19 fevral 1993-cü ildə Şərur rayonunun Yurdçu kəndində anadan olub. Orta təhsilini bitirdikdən sonra hərbi xidmətə yollanıb. 2011-ci ildə hərbi xidmətini başa vuraraq ailəsinin yanına qayıdıb. 2016-cı ildə Aprel döyüşlərində iştirak edib. Aprel döyüşlərində göstərdiyi şücaəti illər sonra başlayan vətən müharibəsində də göstərən Elşən 44 günlük Vətən müharibəsində də ən öndə vuruşan oğullardan biri olub.

Vətən müharibəsi bitdikdən sonra Elşən Səmədli Qubadlıda qalaraq xidmətini davam etdirib. Dekabrın 1-i 2020-ci ildə xidmət zamanı minaya düşərək şəhid olub. Dekabrın 2-sində Suraxanı rayonu Əmircan qəsəbəsində torpağa tapşırılıb.

Şəhid Elşən Səmədli Ali Baş Komandanın sərəncamı ilə "Qubadlının azad olunmasına görə" medalı ilə təltif olunub.

## Şəhid Elşən Səmədli

*Sən ey, vətən oğlu Elşən,*
*Mehə döndün səmalarda.*
*Azad etdin torpağını,*
*Vətəni qoymadın darda.*

*Düşmənlərin bircə-bircə,*
*Dərisini üzüb keçdin.*
*Bu savaşdan qayıtmayıb,*
*Şəhadətdən şərbət içdin.*

*Qəlbimizin sakininə*
*Çevrilmisən həmin gündən.*
*Pay olsaydı sənin üçün,*
*Pay verərdik bu ömürdən.*

*Sənsə bircə ömür deyil,*
*Tarixləri seçdin, igid.*
*Dastan yazıb öz adınla,*
*Ürəklərə köçdün şəhid.*

***28.11.2023***



## Şəhid Hüseynov İsabala Ceyhun oğlu



İsabala Hüseynov 2001-ci il sentyabrın 15-də Bakı şəhərində anadan olub. 2007-2018-ci illərdə 318 nömrəli tam orta məktəbdə təhsil alıb. 2018-2019-cu illərdə isə Dəniz Nəqliyyatı, Gəmiqayırma və Liman İşləri üzrə 16 nömrəli Bakı Peşə Liseyində "Gəmi maşın mexanizmlərinin təmiri üzrə çilingər" təhsili alıb. Subay idi. İsabala Hüseynov 2019-cu ildən Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsində hərbi xidmətini yerinə yetirib. 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsi zamanı hərbi xidmətdə olan İsabala Vətəni canıyla qoruyan igidlərdən biri olub. Torpaqlarımızın düşmənlərdən azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Zəngilanın və Laçının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İsabala Hüseynov noyabrın 4-də Laçın döyüşləri zamanı şəhid olub. Suraxanı rayonunun Əmircan qəsəbəsində dəfn olunub.

Şəhid İsabala Hüsenov "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

## Şəhid İsabala Hüseynov

*Səni nənən saxlayıb,*
*Nənənlə böyümüşdün.*
*Qarabağı ən şirin*
*Nağıllardan bilmişdin.*

*Nənən nağıl deyəndə,*
*Düşünməzdi bəlkə də.*
*Nağılın qəhrəmanı,*
*Böyüyür öz evində.*

*Qarabağa can atdın,*
*Nağıl gerçəyə döndü.*
*Torpaq azad olsa da,*
*Orda həyatın söndü.*

*Şəhid oldun, bir daha,*
*Görə bilmədik səni.*
*Sağ ol, bizim qəhrəman,*
*Qorudun bu vətəni.*

*Hər kəs səndən danışır*
*Qəhrəman İsabala,*
*Öz xalqının dilində,*
*Dönmüsən dastanlara.*

***01.12.2023***

## Şəhid Əliyev Xəyyam  Əlixan oğlu



17 dekabr 1990-cı ildə Suraxanı rayonunun Əmircan qəsəbəsində anadan olub. 1997-ci il Suraxanı rayonu 154 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olub. 2008-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib və Milli Aviasiya Akademiyasının rus bölməsi "Uçan aparatlar və onların mühərriklərinin texniki istismarı" fakultəsinə daxil olub. 2013-cü ildə həmin akademiyanı bitirib.

10 iyul 2013-cü ildə hərbi xidmətini DSX sərhəd qoşunlarında davam etdirib. 10 may 2014-cü ildə zabit hazırlıq kursuna cəlb olunub və 27 iyul 2014-cü ildə həmin kursu bitirib.15 avqust 2014-cü ildə leytenant rütbəsini alıb və DSX-nin "N" saylı hərbi hissəsində uçuş aparatları və mühərriklərin reqlament bölməsinin texniki vəzifəsində xidmət etməyə başlayıb.15 avqust 2016-cı ildə baş leytenant rütbəsi alıb. Xidməti dövründə "kapitan" rütbəsinə qədər yüksəlib.

2020-ci ildə başlayan Vətən Müharibəsinin iştirakçısı olub. 2021-ci ildə silahlar üzrə hərbi hissənin komandir müavini olub. 30 noyabr 2021-ci ildə Azərbaycan Respublikası Dövlət Sərhəd xidmətinin hərbi helikopteri Xızı rayonu ərazisində yerləşən "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları yerinə yetirərkən qəzaya uğrayıb. Həmin təyyarədə  kapitan Xəyyam Əliyev də olub.

Şəhid Xəyyam Əliyev 30 noyabr 2021-ci il tarixində Suraxanı rayonu Əmircan qəsəbəsində torpağa tapşırılıb.

Qəhrəman şəhidimiz Ali Baş Komandanın sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

Şəhidimizin Əlixan adlı övladı xalqına əmanətidir.

## Şəhid Xəyyam Əliyev

*Səndən bizə əmanət*
*Qalıb bircə övladın.*
*Birdə ürəyimizə*
*Yazılıb şəhid adın.*

*Əmanətin baş tacı,*
*Əmanətin əzizdir.*
*Şəhidliyin məqamı,*
*Elə pakdır, təmizdir.*

*O zirvədə hər kəsin,*
*Yeri olmaz şübhəsiz.*
*Gərək həmin zirvəni,*
*Layiqincə sevək biz.*

*Sənə andımız olsun,*
*Unutmarıq adını.*
*Sən qorudun vətənin,*
*Ocağını, odunu.*

***14.12.2023***

## Şəhid Rzayev Ramil Elçin oğlu



*Rzayev Ramil Elçin oğlu 26 mart 2004-cü ildə Suraxanı rayonunda anadan olub. 23 sentyabr 2023-cü ildə şəhid olub. Əmircan şəhidlər xiyabanında dəfn olunub*

### Şəhid Ramil Rzayev

*On doqquz yaşında getdi bir cavan,*
*O da Vətən üçün keçdi canından.*
*İndi göz yaşına dönüb mürəkkəb,*
*Yepyeni şeirlər yazacaq ondan.*

*Çəkəcək rəsmini sözlər bu dəfə,*
*Qara tellərindən başlayacaqdır.*
*Payızda torpağa köçən bir gəncin*
*Məzarı üstündə qışlayacaqdır.*

*Torpaq qarışacaq onun ətrinə,*
*Ətrafa gülabın iyi çökəcək.*
*Şəhidlər elə bir dastan yazdı ki,*
*Bu dastan düşmənin kökün sökəcək.*

*Unudulmayacaq Ramil Rzayev,*
*Hər payız gələndə düşəcək yada.*
*Ruhu şad olacaq cənnət qatında,*
*Bizlərdən razılıq edəcək o da.*

***02.12.2023***

## Şəhid Məmmədov Adilxan Almurad oğlu



Məmmədov Adilxan Almurad oğlu 1973-cü il avqustun 5-də Qərbi Azərbaycanın Ağbaba mahalının, Amasya rayonunda anadan olub. Orta təhsilini 6-cı sinifə qədər Qərbi Azərbaycanda alıb, daha sonra təhsilini Nərimanov rayonu 258 nömrəli orta məktəbdə davam etdirib.

Xocavənd rayonunda, Hadrutda Komanda Briqadasının açılışında və başqa bir çox Hərbi Hissələrdə keçirilən tədbirlərdə Azərbaycan Respublikasının Cənab Prezidenti İlham Əliyev və vitse-prezidentimiz I xanım Mehriban xanım Əliyeva tərəfindən təşəkkürə layiq görülüb.

II Qarabağ müharibəsində, Cəbrayılın və Qubadlının azad olunmasınada iştirak edib, “ Müharibə Veteranı” adına layiq görülüb və fəxri fərmanla təltif olunub.

Məmmədov Adilxan Almurad oğlu 27.11.2004-03.11.2011-ci il tarixlərində Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində aşpaz, 13.11.2011-19.09.2014-cü il tarixlərində 651 saylı Hərbi Hissədə baş aşpaz, 17.09.2014 - 31.08.2016-cı il tarixlərində 171 saylı Hərbi Hissədə baş aşpaz, 14.12.2016 - 02.08.2022-ci il tarixlərində 704 saylı Hərbi Hissədə baş aşpaz,

03.08.2022 - 27.09.2023-cü il tarixlərində isə 218 saylı Hərbi Hissədə Kulinar-texnoloq vəzifəsində işləyib.

Şəhidimizin oğlu, DİN-in Əlahiddə Çevik Polis Alayının Xüsusi Təyinatlı Taborunun əməkdaşı, Məmmədzadə Almurad Adilxan oğlu 19 sentyabr 2023-cü ildə Antiterror əməliyyatları zamanı düşmən tərəfindən basdırılmış mina partlaması nəticəsində yaralanıb, lakin buna baxmayaraq Adilxan oğlunun yanına getməyib, döyüşlərə davam edib. 2023-cü ilin sentyabr ayında başlayan antiterror əməliyyatlarında iştirak edərək, sentyabrın 27-si 2023-cü ildə Füzuli rayonunda vəzifə tapşırığını yerinə yetirərkən şəhid olub. Əmircan Şəhidlər Xiyabanında dəfn olunub.

## Şəhid Adilxan Məmmədov

*Əmircan şəhidi Adilxanı da,*
*Gəlin biz yad edək, unudulmasın.*
*Tez-tez ziyarətə gedək ki, gərək,*
*Məzarı üstündə güllər solmasın.*

*Ömrü xalqımıza xidmətdə keçib,*
*Qoruyub vətəni, sevib vətəni.*
*O da sərhədlərdə sipərə dönüb,*
*Vətən torpağından qovub düşməni.*

*Bu torpaq bağrına basıb oğlunu,*
*Biz də unutmayaq, unutdurmayaq.*
*Daim şəhidlərdən bəhs eyləyərək,*
*Belə tədbirlərdən uzaq durmayaq.*

***02.12.2023***

# Şəhid Sadıxov Samir Sabiroviç




Sadıxov Samir 21 noyabr 1970-ci ildə anadan olub. 19 sentyabr 2023-cü ildə səhər saat 4 radələrində yeni inşa edilən Əhmədbəyli- Füzuli- Şuşa avtomobil yolunun 58-ci kilometrliyində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus "Howo" markalı yük maşının tank əlehinə minaya düşməsi nəticəsində agentliyin digər əməkdaşı Quliyev Fərhad Hüseynağa oğlu ilə birlikdə həlak olub. 22 sentyabr 2023-cü ildə Suraxanı rayonu Əmircan qəsəbəsində xalqın böyük izdihamı ilə torpağa tapşırılıb.

## Şəhid Samir Sadıxov

*Sən, ey vətən oğlu, hardan biləydin,*
*Bəxtinə şəhidlik yazılıb sənin.*
*Həmin gün anidən düşüb minaya,*
*Döndün hədəfinə sən də düşmənin.*

*Əmircan torpağı aldı qoynuna,*
*Səni göz yaşıyla yola saldılar.*
*Ruhun rahatlığa qovuşsun, igid,*
*Əsgərlər düşməndən qisas aldılar.*

*Yerdə qoymadılar günahsız qanı,*
*O mənfur erməni oldu peşiman.*
*Bir də bundan sonra çətin ki, dönə,*
*Mənim torpağıma gəlməz heç zaman.*

*Səni də unutmaz, xalqımız əsla,*
*Gəlib məzarını ziyarət eylər.*
*Şəhid anaları öz övladı tək,*
*Orda sənin üçün laylar söylər.*

***25.11.2023***



## Azərbaycan igidləri

*İgidləri qoruyub sərhədini bu yurdun.*
*Azərbaycan əzəldən qəhrəmanlar yetirib,*
*İllər boyu bir an da bitməyib mübarizə,*
*Keçərək sınaqlardan bu günlərə gətirib.*

*Bu xalq tarix boyunca fəxr edib oğullarla,*
*Hər igidin qəlbində öz yeri var silinməz.*
*Neçə ki, yurdumuzun var belə oğulları,*
*Qorunar torpaqlarım, bir qarışı bölünməz.*

*Biz vətəni hər nəfəs sevərik candan artıq,*
*Lazım olsa uğrunda keçərik canımızdan.*
*Düşmən düşər qorxuya əsər əli-ayağı,*
*Yel olub keçə bilməz qətiyyən yanımızdan.*

***17.11.2023***



## Can Azərbaycan

*Azərbaycan torpağı igidlər yetişdirib,*
*Qarabağdan oğullar bizə müjdələr verib.*
*O mənfur düşmənlərdən azad olub torpaqlar,*
*Ən uca zirvələrdə dalğalanıb bayraqlar.*

*Nəhayət Natəvanın ruhu rahatlıq tapıb,*
*Xudayarın təsnifi bütün dillərə hopub.*
*Hopub Vətən sevgisi damardan axan qana,*
*Biz can qurban edərik doğma Azərbaycana.*

*Vətən bizə anamız, balamız tək əzizdir,*
*Bu sevgi elə safdır, büllur tək tər-təmiz.*
*Uşaqtək dil açanda "Ana Vətən" deyirik,*
*Biz vətəni bir ömür ölümünə sevirik.*

*Ən gözəl duaların içindədir Vətənim,*
*O mənim yurd yerimdir, odur mənim məskənim.*
*Hər nəfəsi gözəldir, hər dağı, hər dərəsi,*
*Dolaşır diyar-diyar vətənimin nəğməsi.*

*Qoruyaraq əbədi hər qarış torpağını,*
*Öpüb, əzizləyərik üçrəngli bayrağını.*
*Uğrunda ölüm olsa geriyə çəkilmərik,*
*Bircə qarış torpağı biz düşmənə verməsik.*

*Üçrənli bayrağımın mavisidir türklüyüm,*
*Qırmızı şəhid qanı, qırmızı özgürlüyüm.*
*Yaşıl islam dinimiz, müsəlmanıq həmd olsun,*
*Bir də ay-ulduzu var, bayrağımız qorunsun.*

*Var müzəffər ordumuz, tarixə dastan yazan,*
*Düşmənin öz əliylə, özünə quyu qazan.*
*Təmizləyən torpağı mənfur ermənilərdən,*
*Gərək həddin bildirək o murdarlara hərdən.*

*Bir də ayaq basmasın, gəlməsin torpağıma,*
*Toxunmasın əlləri Qarabağda bağıma.*
*Mənim xalqım hər zaman sülh içində yaşasın,*
*Qarabağ tarixində gözəlliklər başlasın.*

***26.10.2023***



*İki xala uşağı yol eylədi cənnətə,*
*Hər ikisi ürəkdən xidmət edib millətə.*
*Biri şəhid Davuddu, xidmətdə şəhid oldu,*
*Mühafizə işçisi İsgəndərdi boğuldu.*








*Şimşək vurdu Davudu,*
*Şəhid etdi həmin an.*
*İsgəndər də dözmədi*
*Köçüb getdi həyatdan.*




*Ağlama, ay ana, ağlama daha,*
*Buludlar dözməyir yerdə bu aha.*
*Göylərin sinəsi dağlanır hər an*
*Məzarım üstündə ağlayan zaman.*





*Boş qalıb çarpayı, örtüyü bayraq,*
*Şəhid otağıdır ürək dağlayır.*
*Hər kimki qapısın açıb boylansa,*
*Baxıb şəkillərə dözmür ağlayır.*



*Otaqda şəkillər dil açıb sanki,*
*Cavan talelərdən danışır sənə.*
*Ey əcəl, qurusun əlin, qolların,*
*Sən necə qıydın ki, onun ömrünə.*

*İlahi, bu otaq mənə göz dağı,*
*Yanan ürəyimin alov yeridi.*
*Deyirlər, "səbr elə şəhid anası,*
*Davudun qəhrəman, igid biridi."*




*Mənim xəyallarım yarıda qaldı,*
*Qismətim şəhidlik yazıldı o gün.*
*Anam tək oğluna toy arzularkən,*
*Şəhid guşəsinə dönmüşəm evin.*



*Bir şəhid seyr edir göylərdən bizi,*
*Onun gözlərində cənnət görünür.*
*Görür unudulmayıb, yaddan çıxmayıb,*
*Ruhu rahat olur, qəlbi sevinir.*




*Zaman mənsiz gəlib, mənsiz keçəcək,*
*Hər kəsin yadında adım qalacaq.*
*Bu xalq hörmət ilə anacaq məni,*
*Davud Məmmədlini unutmayacaq.*







*Samiri dalğalar alıb apardı,*
*Dəniz İsgəndəri bizdən qopardı.*
*İki dost qərq oldu dərin sulara,*
*İndi həsrət qalıb hər kəs onlara.*




*Davud şəhid oldu,*
*Yandı qəlbimiz.*
*Onu ömür boyu,*
*Unutmarıq biz.*



*Dönüb ziyarətə şəhid ocağı,*
*Hər gələn qürurla danışır ondan.*
*Əcəl cavanlara qıyıbdır deyə,*
*Yaman gileyliyik ötən zamandan.*





*Dur, oğul, soyuqdur bu daş məzarın,*
*Dur gedək hər kəsin gözü yoldadı.*
*Hərdən gecələr də qəfil oyanıb,*
*Deyirəm, görəsən balam hardadı?*



*Anam şəkillərə baxıb kövrəlir,*
*Düşür xatirələr bir-bir yadına.*
*Kaş onun göz yaşın silə bilərdim,*
*Kaş dönə biləydim bir də yanına.*



*Sənə bəylik taxtı qismət olmadı,*
*Cənnətdə şəhidlik taxtını qurdun.*
*Bu ömür o qədər ağırmı gəldi,*
*Onu daşımaqdan nə tez yoruldun?*



*Belə qardaşlığı, belə dostluğu,*
*Bəlkə  tarix bir də yaşaya bilməz.*
*Elə qəhrəmanlar getdi cənnətə,*
*Bir daha dünyaya qayıdıb gəlməz.*



*Əziz dost, görürsən, bizdən danışır,*
*Hər kəsin dilində dastan olmuşuq.*
*Cavan ömrümüzə qıysa da əcəl,*
*Canlar xilas edib qəlbə dolmuşuq.*



*Bir ana görmüşəm gözləri yaşlı,*
*Bala həsrətiylə yanır ürəyi.*
*Oğlu şəhid kimi dönəndən bəri,*
*Susub arzuları, küsüb diləyi.*



*Mən şəhid Davudam, Əmircanlıyam.*
*Qorxusuz biriyəm, dəliqanlıyam.*
*Cənnətin yolunu özüm seçmişəm*
*Tarixə adımı yazıb getmişəm.*



# MÜNDƏRİCAT

Əmircan qəsəbəsi ........................................................... 3
Şimşəkdən dənizə ........................................................... 4
Qələmi ağladan şeirlər ........................................................... 27
Şəhid balam Davudum ........................................................... 29
Dənizdə batan dostların xatirəsinə ........................................................... 30
Dərd üstə dərd yaşadıq ........................................................... 31
Cənnət qonşuları ........................................................... 33
Dəniz aldı balamı ........................................................... 34
Burda iki məzar var ........................................................... 35
Xala məni oxşa yenə ........................................................... 37
Mənim qəlbimdəsən qardaş ........................................................... 38
Şimşəklərdən qorxuram ........................................................... 39
Ağlasın buludlar ........................................................... 40
Şəhid bulağı ........................................................... 41
Şəhid Davud bulağı ........................................................... 42
Şimşəyin fəryadı ........................................................... 43
İslanmış yaylıq ........................................................... 45
Şəhid Əbdüləli Abbasov ........................................................... 48
Əmircan şəhidlər xiyabanında qonşu olan şəhidlər ............ 49
Şəhid Hüseynov Orxan Bəhman oğlu ........................................ 50
Şəhid Orxan Hüseynov ........................................................... 51
Şəhid Kirxlarov Nazim Nadir oğlu ........................................ 52
Şəhid Nazim Kirxlarov ........................................................... 53
Şəhid Salayev Elşən Fuad oğlu ........................................ 54
Şəhid Elşən Salayev ........................................................... 55
Şəhid Səmədli Elşən Bayram oğlu ........................................ 56
Şəhid Elşən Səmədli ........................................................... 56
Şəhid Hüseynov İsabala Ceyhun oğlu ........................................ 58

**Şəhid İsabala Hüseynov .......... 59**
**Şəhid Əliyev Xəyyam  Əlixan oğlu .......... 60**
**Şəhid Xəyyam Əliyev .......... 61**
**Şəhid Ramil Rzayev .......... 62**
**Şəhid Məmmədov Adilxan Almurad oğlu .......... 63**
**Şəhid Sadıxov Samir Sabiroviç .......... 65**
**Şəhid Samir Sadıxov .......... 66**
**Azərbaycan igidləri .......... 67**
**Can Azərbaycan .......... 68**

Nəşriyyat direktoru: Adil Abdullayev

Kitab hazır depozitivlərdən istifadə edilərək
“Gənclik” nəşriyyatında çap edilmişdir.

Çapa imzalanmışdır: 16.01.2024
Kitabın formatı: 60x84 1/16.
Həcm: 5,25 ç.v.
Tiraj: 200

Ünvan: Mətbuat prospekti, 529-cu məh.